“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 03 (03) ✦ 30 iyul 2024-cü il

# Böyük Turana gedən yol Şuşadan keçir



Gerçək sahiblərinə qovuşan Şuşa şəhəri,dünyada sülhün, ədalətin bərpası üçün, haqqın tərəfində duran, adı hələ elan olunmamış Böyük Turan Dövlətinin qurucu dövlətləri olan Türk Dövlətləri Təşkilatı ölkələrinin tədbirlərinə, rəhbərlərinin görüşünə ev sahibliyi edir. Şuşa həm də Türk torpağının kürəsəlçi çətənin, sömürgəçi, işğalçı dünya gücləri olan böyük dövlətlərinin əsarətindən, işğalından qurtuluşunun, azadlıq simvoludur.

6 İyul Şuşa görüşündə,altı dövlət 2021-ci ildə Türkiyə prezidenti R.T.Erdoğan ilə Azərbaycan prezidenti İ.Əliyevin imzaladığı "Şuşa Bəyənnaməsi" adlı təməlin üzərində daha böyük sağlam bir yapının inşasına başladılar. Doğrudur görüşün bir çox detalları hələ açıqlanmır. Təbiidir, ictimai rəy hələ buna hazır deyil. Hələ böyük əksəriyyət faktlara inana bilmir, gördükləri gerçəklərin fərqində deyillər..

Türkiyə Xarici İşlər naziri H.Fidanın çıxışında maraqlı məqamlar,mesajlar çoxdu.Məsələn,onun ortaq əlifbaya keçməliyik dediyində Atatürkün 1923-də Türkiyə Cumhuriyyətini qurduğunda etdiyi inqilablardan biri olan hərf inqilabı nəticəsində Xalqçılıq prinsipini (Halkçılıq ilkesi) həyata keçirərək ölkədə yaşayan millətlərin vahid Türk xalqı olmasını təmin etdiyini xatırlayırıq. Artıq bir çox sahələrdə birliyin təməlləri, imzaları atılıb. Buna ilk olaraq hərbi birliyi, vahid ordunu, hərbi sənayeni, mədəniyyəti, kənd təsərüffatını, təhsili, səhiyyəni misal göstərmək olar.

Rəsmi heç bir açıqlama olmasa da deyilənə görə Turan Dövlətinin pasportu, pul vahidi, iqtisadi sistemi hazırdır. Dövlətin elanı ən son işdir. Çünki Dövlət əvvəlcə qurulur, hazır olur sonda elan edilir. Yoxsa olmayan, yalançı Dövlət elan edilib sonradan qurulmur. Yalançı "dövlətlər" də mövcuddur, bunlar böyük güclərin əlində oyuncaq "dövlətlərdir. Məsələn, artıq "var olan" İŞİD və ya qurulmaq istənən "Böyük Kürdüstan", xəyallarını suya düşürdüyümüz "Dənizdən dənizə böyük Ermənistan".

Böyük, güclü dövlət elə bir andaca qurulmur. Məsələn, Atatürkün Türkiyə Cumhuriyyətini necə qurduğuna baxdığımızda,1919-da başlayan böyük hərəkatın 1923-də tamamlanıb Cümhuriyyət elan edildiyində, bu müddətdə nələrdən keçdiyini, Amasya, Havza, Erzurum, Sivas görüşləri, Böyük Taaruz, I İnönü, II İnönü savaşları, Kuvai Milliye, Lozan anlaşması, səltənətin qaqldırılması, xilafətin ləğvi, Milli Məclis və sairə əsaslı, çətin proseslərdən keçdiyini, hansı əngəllərin aşıldığı, bütün sahələrdə həyata keçirdiyi prinsipləri, etdiyi bir çox inqilabları görürük.

Turan Dövləti də sanki Türklərin ənənəvi dövlətlərlər qurma adətinə uyğun qurulur. Azərbaycan olaraq bu prosesin aparıcı qüvvələrindən olmağımızdan, azad olunmuş torpaqlarımızın belə böyük işlərə, tədbirlərə ev sahibliyi etməsindən qürur duyuruq. Türkün birliyi ən böyük gücdür, islamla şərəfləndiyi üçün əbədidir.

**Ramazan ABAL**

# Şuşada keçirilən II Qlobal Media Forumu başa çatıb




Milli mətbuatımızın 149 illiyi münasibətilə Şuşa şəhərində İyulun 20-də öz işinə başlayan və üç gün davam edən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" adlı II Qlobal Media Forumu öz işini yekunlaşdırdı. Forumun sonuncu sessiyası "İqlim hərəkatı və media" mövzusuna həsr olunub. Bildirilib ki, dünyada iqlim dəyişmələrinin qarşısının alınması, ekoloji sabitliyin və tarazlığın yaradılması, dayanıqlı inkişafın təşviq edilməsi və bu istiqamətdə əhəmiyyətli nəticələrin əldə olunmasında media xüsusi rol oynayır. Bu səbəbdən media və kommunikasiya vasitələrinin mövcud proseslərdə düzgün istifadə edilməsi, hədəf auditoriyaya hesablanan təsirli mesajları ötürməsi, kütləvi fərqindəlik və məsuliyyət hisslərini formalaşdırması iqlim dəyişmələrinə qarşı kollektiv qabaqlayıcı tədbirlərin görülməsi və ya belə tədbirlərin effektivliyinin artırılmasında zəruridir.

Panel sessiyada, həmçinin iqlim hərəkatında medianın rolu, yaşıl dünya naminə səmərəli məlumatlandırma mexanizmlərinin hazırlanması, iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində ictimai gündəmin yaradılmasında medianın əhəmiyyəti kimi mövzularda müzakirələr aparılıb.

Qeyd edək ki, 50-ə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən, 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı forum beynəlxalq əhəmiyyətli, böyük tədbirdir.

Xatırladaq ki, Prezident İlham Əliyev "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" Forumunun açılış mərasimində iştirak edib və jurnalistlərin çoxsaylı suallarını cavablandırıb.

**“YENI BALAKƏN”**

# BÜTÜN GÜNLƏRİ ƏBƏDİLƏŞDİRƏN GÜNÜMÜZ VAR







# 22 İyul Milli Mətbuat Günüdür

149 il öncə Azərbaycan milli mətbuatı 1875-ci ildə Həsən bəy Zərdabinin yaratdığı,22 iyulda ilk nömrəsinin çap olunduğu "Əkinçi" qəzeti ilə başlayır.Həsən Bəy qəzetin çapına çar rusiyasından icazə almaq üçün düz yeddi il çalışır və sonunda Bakının qubernatoru, general-mayor D.S.Staroselskiyə ərizə ilə müraciət edərək qəzet nəşrinə icazə alır. İcazə aldıqdan sonra qəzətin çapı da elə asan başa gəlməyib, hər dəfə maliyə vəsaiti tapmalı olub. Azərbaycanda çap mətbəəsi olmadığından, çar rusiyasındakı mətbəələr də rus əlifbası ilə olduğundan Həsən bəy hər dəfə "Əkinçinin" çapı üçün ya İrana ya da Türkiyəyə getməli olub.Bəli,belə əziyyətlə,məşəqqətlə milli mətbuatımızı yaradan və bununla öz doğma dilimizdə maarifçiliyə,əhalinin savadlanmasına xidmət edən Həsən bəy Zərdabini və onun "Əkinçisini" xalqımız heç zaman unutmur, qiymətləndirir,dəyər verir.

"Yeni Balakənin" taleyi də bir növ "Əkinçiyə" bənzəyir.Sənədləşmə üçün aylarla qaç-qovda oldum və sonunda şəhadətnaməni aldım.İlk nömrəni çap etmək üçün 547 manat kredim götürdüm Kapital Bankdan,birinci nömrədən qalan pulun üzərinə rayonun ümumi işinə yaryan,təəssübkeş dostların hərəsinin özü üçün yazıldığı bir bir nüsxə abunənin pulunu da qoyaraq 2-ci nömrəni çap etdim.Birazdan,bir həftə sonra 3-cü nömrə çap olunmalıdır,buna isə Allah Kərimdir. Balakəndə mətbəə olmadığından, ən yaxını Mingəçevirdədir, ora gedirəm "Yeni Balakənin" çapı üçün.

Əlbəttə ki, çətindir. Asanı, olmayan qəzetin abunəsini yığıb yemək idi-bu gün var olana dəstək olmadan.

"Yeni Balakən" umumən Balakən rayonunun ictimai siyasi qəzetidir. Hər kəsin açıq tribunasıdır. Təhqir və böhtan olmamaq şərtilə tənqidə və irada açıqdır.Tənqiddən,iraddan qorxmaq lazım deyil. Bəzi siyasi bisavadlar və cahillər irada, tənqidə demaqoqiya deyirlər. Halbuki tənqid və irad özünü düzəltmək, səhvləri aradan qaldırmaqdır. Tənqidi, iradı ağacdələnə bənzədirəm. Bəzən səsi, tıqqıltısı aləmi başına götürür amma əsla ağaca zərər verməz, onu zərərli şeylərdən təmizlər. Ağacdələnə meşənin doktoru deyirlər. Qəzet sizin fəaliyyətinizə güzgüdür. Tarixin yaddaşında əbədi yaşayacağınız bir məqam və məkandır qəzet. Bir gün hatırda qalmasada, satırda qalacaq. Sosial şəbəkə riskli və müvəqqətidir. Bircə dəfə şifrəni unutmaq,ya da xaker barmağı yetər ki, o özündən dediyin səhifənə bir daha əlin çatmasın. Bu gün çox görürük,rastlaşırıq itkin " səhifələrlə". Bir evin sahibi özün deyilsənsə, sən orda qonaqsan. Qəzet rəsmi sənəddir. Qəzet çox şeydir, bilənə.

"Yeni Balakən" qəzeti rayonun ümumi işidir, hər kəsə lazımdır, indi olmasa da sabah mütləq. Bu ümumi işə böyükdən kiçiyə, istər vəzifəcə istərsə də yaşca hər kəsin dəstəyi umulan, arzulanandır.

Azərbaycanda Mətbuata münasibət Zərdabidən formalaşaraq Heydər Əliyelə tamamlanır. Mətbuata, mediaya, qəzetə ən gözəl münasibəti müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyev sərgiləyib, nümayiş etdirib. Heydər Əliyevin mətbuata münasibəti Azərbaycan daxilində nümunədir, etalondur. Müasir Azərbaycanı daha yüksək zirvələrə aparan İlham Əliyevin mətbuata münasibəti daha çox ədalət və inkişaf yönlüdür. Ölkə Rəhbəri dəqiq, qərəzsiz, tərəfsiz, gerçək, obyektiv fəaliyyətdə gömək istəyir mətbuatımızı. "Yeni Balakən" məhz bu prinsiplər əsasında qurulub.

Azərbaycanın 67 rayonunun 66-nın böyükləri,kiçikləri öz rayonunun qəzetinə hər mənada dəstək olurlar,kömək edirlər. Mən o böyüklərə də,kiçiklərə də təşəkkür edirəm. Var olsunlar.

Heydər Əliyev: **- "Mətbuat - Dövləti və Cəmiyyəti birləşdirən canlı sinirdir."**

**Ramazan ABAL**

# Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin təşkilatçılığı ilə Balakən rayon hərbiləşdirilməmiş ərazi mülki müdafiə qüvvələri ilə xəbərdarlıq və toplanış üzrənümunəvi mülki müdafiə məşqi keçirilib





"Fövqəladə hadisələr zamanı hərbiləşdirilməmiş ərazi mülki müdafiə qüvvələrinin xəbərdarlıq toplanışı siqnalı üzrə fəaliyyəti" mövzusunda keçirilən tədbirə Şimal-qərb Regional Mərkəzinin şəxsi heyəti və texnikası, Balakən Rayon İcra Hakimiyyətinin Mülki müdafiə qərargahı, Fövqəladə Hallar Komissiyası və ərazi mülki müdafiə qüvvələrinin şəxsi heyəti cəlb edilib.

Məşqin keçirilməsində məqsəd ərazi mülki müdafiə qüvvələrinin fövqəladə hallara operativ reaksiyavermə hazırlığı səviyyəsinin yoxlanılması və böhran vəziyyətlərində birgə fəaliyyətlərin uzlaşdırılması, komandir-rəis heyətinin idarəetmə sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi, şəxsi heyətə xəbərdarlıq toplanışı üzrə əməli vərdişlərin aşılanması olub.

Tədbir zamanı hərbiləşdirilməmiş ərazi mülki müdafiə dəstələrinin fövqəladə hal barədə xəbərdar edilməsi, xəbərdarlıq toplanışı siqnalı ilə qaldırılması, toplanma məntəqəsinə yürüş, toplanış və idarəetmənin təşkili üzrə fəaliyyətləri yoxlanılıb, həmçinin funksional vəzifələrlə bağlı məruzələr dinlənilib. Ümumilikdə nümunəvi məşqə rayonda fəaliyyət göstərən 14 idarə, müəssisə və təşkilatdan 171 nəfər əməkdaş və 37 ədəd texnika cəlb edilib.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı - rayonun mülki müdafiə rəhbəri İslam Rzayev, Balakən Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini - Fövqəladə hallar komissiyasının sədri Turan Dibirov və FHN-in Şimal-qərb Regional Mərkəzinin rəisi polkovnik Ceyhun Babayev çıxış edərək, ərazi mülki müdafiə dəstələri ilə xəbərdarlıq və toplanış üzrə məşqin vacibliyini diqqətə çatdırıb, bu cür tədbirlərin əhəmiyyətindən danışıblar.

Sonda məşqin təhlili aparılaraq çatışmazlıqlar diqqətə çatdırılıb, müvafiq tapşırıqlar verilib.

"YENİ BALAKƏN"

# Balakəndə Azərbaycan Polisinin yaranmasının 106-ci ildönümünü qeyd edildi







Xalqımızın ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub.

Daxili İşlər Nazirliyi və onun təşkilati strukturu olan polis orqanları 1918-1920-ci illəri əhatə edən fəaliyyəti dövründə ilk müstəqil dövlətimizin milli maraqlarının müdafiəsində böyük vətənpərvərliklə mühüm rol oynayıb. Cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 70 il ərzində daxili işlər orqanları uğurla inkişaf edib, ictimai asayişin qorunmasında yüksək nəticələr və zəngin təcrübə qazanıb. Xüsusilə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızın iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar qazandığı 1970-1980-ci illər Daxili İşlər Nazirliyinin tarixinə ən mühüm mərhələ kimi həkk olub.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə böyük uzaqgörənliklə daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı mühüm qərarlar qəbul edib. Şəxsi heyətin məhz milli ruhda formalaşmasının nəticəsi idi ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ilk olaraq rəşadətlə dəf edən nizami qüvvə milis, sonrakı illərdə Daxili Qoşun hissələri oldu. Bu döyüşlərdə 1695 polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının Fərmanı ilə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq yaradılan və hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların fəaliyyətinin təşkilinin Daxili İşlər Nazirliyinə həvalə edilməsi Azərbaycan Polisinə göstərilən yüksək etimadın daha bir göstəricisi oldu. Ölkəmizin bütün ərazilərində, o cümlədən işğaldan azad olunan şəhər və rayonlarımızda bu mühüm məsuliyyətin öhdəsindən layiqincə gələn daxili işlər orqanlarının əməkdaşları göstərilən etimadı doğrultmaq üçün gecə-gündüz uğurla xidmət aparırlar.

Bu gün Balakən rayonunda da 2 İyul - Azərbaycan Polisi günü yüksək səviyyədə qeyd olundu. Rayon polis təşkilatının əməkdaşları ilk olaraq Balakən Polis Şöbəsinin həyətində sıra düzülüşündə toplandılar. Balakən Polis Şöbəsinin rəisi Çingiz Aslanov polis işçilərini, onların ailələrini ilk öncə Daxili İşlər Naziri cənab Vilayət Eyvazovun, sonra isə öz adından təbrik edərək xoş diləklərini bildirdi. Polis kollektivi daha sonra Dağüstü parka gələrək onları təbrikə gələn Balakən Rayon İcra Hakimiyyətinin Başçısı İslam Rzayev və digər hüquq mühafizə,inzibati orqanların rəhbərləri ilə birgə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül çiçək dəstələri qoyaraq dərin ehtiramla xatirəsini yad etdilər.Başda rayon rəhbəri olmaqla digər qonaqlar da polis işçilərini peşə bayramları günü münasibətilə təbrik edərək, cinayətkarlıqla mübarizədə, asayişin qorunmasi işlərində uğurlar, müvəffəqiyyətlər dilədilər. Balakən RİH-in başçısı İslam Rzayev xidmətdə fərqlənən bir qrup polis işçisini Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif etdi. Polis rəsisi Çingiz Aslanov qonaqlara, iştirakçılara təşəkkür edərək onu da qeyd etdi ki: - Bu gün bizim bayramımızdır, Azərbaycan Polisi günüdür, sevincliyik və biz Balakən Rayon Polis Təşkilatı olaraq bu sevincimizi ilk olaraq şəhid ailələri ilə bölüşüb, paylaşacağıq. Burdan çıxıb şəhid ailələrini ziyzrət edəcəyik.

Sonda bu əlamətdar gündən yadigar olaraq xatirə şəkli çəkildi.

**Ramazan ABAL**

# DGK sədri "Mazımqara" dövlət sərhədindən buraxılış məntəqəsində mövcud vəziyyətlə tanış olub



İyulun 19-da Dövlət Gömrük Komitəsinin sədri Balakən Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Mazımqara" dövlət sərhədindən buraxılış məntəqəsində mövcud vəziyyətlə tanış olub.

Sərhədkeçmə və rəsmiləşdirmə proseslərinin asan və sürətli şəkildə həyata keçirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması, nəqliyyat və yük axınlarının idarəedilməsi, xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlı tapşırıq və tövsiyələr verilib.

"YENİ BALAKƏN"



# Balakən Rayon Mərkəzi Xəstəxanasında "Qeyri-infeksion xəstəliklərin profilaktikası" mövzusunda şəkərli diabet xəstələrinin iştirakı ilə maarifləndirici tədbir keçirilib

Tədbirdə direktor Dilbər Quliyeva, həkim-endokrinoloqlar Rəisət Hetayeva və İlahə Ustayeva, aptek bölmə müdiri Cəbrayıl Əhmədov və provizor Abakar Mehdiyev iştirak edib.

Həkim-endokrinoloqlar tərəfindən şəkərli diabet xəstəliyinin yaranmasının səbəbləri, müalicəsi və bir sıra aktual problemləri barədə danışılıb və iştirak etmiş şəxslərə şəkər ölçmə cihazları paylanılıb.

Direktor Dilbər Quliyeva qeyd edib ki, şəkəri ölçən cihazlar xəstələrə dövlət hesabına ödənişsiz olaraq təqdim olunur və mütəmadi olaraq xəstəxanada diabet xəstəliyi barədə maarifləndirici tədbirlər keçirilir.

Hazırda şəkərli diabet xəstələrinin bütün profilaktiki və digər zəruri müalicə vasitələri və preparatları dövlət vəsaiti hesabına təmin olunur. Bu xəstəlikdən əziyyət çəkən şəxslər mütləq şəkildə rayon xəstəxanasına müraciət etməli və şəkərli diabet xəstəsi kimi qeydiyyata alınmalıdırlar.

İclasda vətəndaşlara və xəstələrə ixtisaslı həkimlərin-oftalmoloq, uroloq, kardioloq, endokrinoloq, qastroenteroloqun müayinələrindən keçməyi və laborator analizlərin verilməsinin vacibliyi haqqında məlumat verilib.

"YENİ BALAKƏN"

# Balakən Təhsil sektoruna təyinat



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudovanın müvafiq əmri ilə Mehparə Mirzəyeva Balakən rayon Təhsil sektorunun müdiri vəzifəsinə təyin olunub.

Qeyd edək ki, "Tərəqqi" medallı Mehparə Mirzəyeva uzun illər şəhid qardaşının adını daşıdığı Zaqatala şəhər 1 saylı tam orta məktəbdə müəllim kimi çalışıb.2022-ci ilin noyabr ayında isə Elm və Təhsil Nazirinin əmri ilə çalışdığı məktəbə direktor təyin edilib.

Balakən ictimaiyyəti olaraq hörmətli pedaqoqumuza - xoş gəldin - deyirik. Mehparə xanımı bu təyinatı münasibətilə təbrik edir,işində uğurlar, fəaliyyətində müvəf- fəqiyyətlər diləyirik.

"YENİ BALAKƏN"

# Yeni Azərbaycan Partiyası tərəfindən 110 saylı Balakən və 111 saylı Zaqatala - Balakən dairələrindən deputatlığa irəli sürülmüş namizədləri



İyulun 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib.

İclasda ilk olaraq Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədlərin irəli sürülməsi məsələsinə baxılıb.

YAP Sədrinin müavini vurğulayıb ki, 2024-cü ilin fevral ayında keçirilmiş Zəfər seçkisində xalqın mütləq əksəriyyəti Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi dəstəkləməklə həyata keçirilən siyasətə, Heydər Əliyev yoluna dərin inamını bir daha nümayiş etdirmişdir: "Hazırda ölkəmiz daha bir mühüm ictimai-siyasi proses ərəfəsindədir. Müstəqillik tariximizdə ilk dəfə olaraq 2024-cü il sentyabrın 1-də ölkəmizin bütün ərazisində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə qatılır".



Sonra Azərbaycan Respublikası-nın Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbə-dənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş şəxslərin siyahısı elan edilib və müzakirələrdən sonra təsdiq olunub.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov namizədlərə uğurlar arzulayaraq ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin onlara göstərdiyi yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəklərinə, yeni dövrdə qarşıda duran vəzifələrin icrası üçün var gücü ilə çalışacaqlarına əminliyini ifadə edib.

"YENİ BALAKƏN"

**Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən 110 saylı Balakən və 111 saylı Zaqatala - Balakən dairələrindən deputatlığa irəli sürülmüş namizədlər:**

| | |
|---|---|
| 110 saylı Balakən | Məhəməliyev Nəsib Məhəmməd oğlu |
| 111 saylı Zaqatala - Balakən | Mahmudova Vüsalə Yusif qızı |

# GECƏ QOPAN FIRTINANIN SƏHƏR GÖRÜNTÜLƏRİ



Anormal iqlim şəraiti Balakəndə də davam edir. Bəzən külək, fırtına, tufan qopur, dolu yağır. Sabahkı gün isə sanki bunlar heç olmayıbmış kimi qızmar güneş səhərin erkən saatlarından







yandırıb qovurmağa başlayır. Küləkli, fırtınalı gecənin birində külək Balakən şəhəri,Əli Ansuski küçəsində yerləşən köhnə Hərbi Komissarlıq binasının dam örtüyünü uçuraraq yaxınlıqdakı yaşayış evinin üzərinə salıb. R.Səmədov adına 2 saylı Uşaq Bağçasının həyətindəki nəhəng ağacı kökündən qopararaq yerə yıxıb. Xoşbəxtlikdən gecə, uşaqların olmadığı vaxtda baş verib. Aidiyyatı qurumlar, rayon rəhbərliyinin birinci müavini, şəhər nümayəndəliyi və digər qurum işçiləri hadisə yerində gərəkən işləri görürlər.

"YENİ BALAKƏN"

# Vahidin əmanəti

II Qarabağ müharibəsi başa çatdıqdan sonra xeyli vaxt idi ki, Balakənin şəhid ailələri Qarabağa, özəlliklə Şuşaya getmək istəyirdilər. Övladlarının işğaldan azad etdiyi, ayaqlarının dəydiyi yerləri görmək, qanları ilə yoğurduğu torpağa toxunmaq, ruhlarının dolaşdığı yerlərdə olmaq ən böyük arzuları idi. Doğrudur, millət vəkili Nəsib müəllim söz verməşdi və köməkçisi də artıq bu işlə məşğul olmağa başlamışdı. Bu arada parlament buraxıldı, millət vəkillərinin də bənzəri işlərdən bir müddət uzaq qalmaları gərəkir. Çünki seçim propaqandasına öncədən başlamış kimi yozula, yazıla bilər.

Rayonumuzun "Asan Xidmət" işçisi Elçin Bodurovun səyi,köməyi nəticəsində sənədləşmə işləri qısa zamanda yekunlaşaraq şəhid aillərindən bir neçə ailə öz hesablarına maşın tutaraq bu arzularını gerçək-ləşdirdilər.




Şəhid dayısının adını daşıyan ba-laca Vahid, dayısının azad etdiyi yerlərin suyundan içdi, havasından doyasıya ciyərlərinə çəkdi. Dayısının əmanətinə diqqət və maraqla baxaraq yaddaşına yazırdı...

O çətin relyefi, enişləri, yoxuş- ları, dik sıldırım qayaları görən şəhid atası Tahir Əlisoltanov deyir ki, buraları görmədən anlaya bilməzsiniz şəhid-lərin necə böyük işlər gördüyünü, o misilsiz, tayı bənzəri olmayan savaşda qəhrəmanlıqdan ötə, əfsanə olduq-larını. Onlara bu gün hansı adı, məbləği, dünyanı versən belə azdır.

Şuşada tanış olduqları digər şəhid ailələri ilə görüşlərində, söhbətlərində şəhidlərimizin qəhrəmanlıq dastanla-rından qürurla, fəxrlə danışırdılar - onların bu dastanları yaratdıqları torpağın üzərində duraraq - bir şeyə əbədiyyən sahib olmağın duyğu-suyla...

# Balakən şəhər 1 nömrəli uşaq bağçasındakı "Əlvida Bağça, Salam Məktəb" adlı gözəl tədbirdən görüntülər









# Balakən rayonunda "Etnik rəngarənglik" başlığı altında tədbir







Balakən rayon Mədəniyyət Mərkəzində, Azərbaycanda yaşayan azsaylı xalqların məişət və mədəniyyəti, adət-ənənələrinə həsr edilmiş "Etnik rəngarənglik" başlığı altında tədbir keçirildi.

Tədbirdə etnik baxımdan zəngin regionlarımızdan sayılan şimal-qərb zonasında da xeyli sayda milli azlıq və azsaylı xalqların məskunlaşdığı, Balakən rayonu da belə rayonlarımızdan olduğu vurğulanmışdır. Balakəndə hazırda azərbaycanlılar, avarlar, ingiloylar, saxurlar, farslar, ruslar, ləzgilər, gürcülər, türklər, tatarlar və digər xalqların nümayəndələri əl-ələ çiyin-çiyinə verərək ölkəmizin bərabərhüquqlu vətəndaşları olaraq yaşayır, çalışırlar. Tədbirdə "Fidanlar" rəqs qrupu, "Cahan" avar xalq kollektivi, "Buta" folklor kollektivi, "Ebel" avar folklor kollektivi, "Şəlalə" ingiloy rəqs qrupu çıxış edərək, öz adət-ənənələrini nümayiş etdirdilər. Həmçinin tədbirdə hər xalqın özünə məxsus əl işlərindən ibarət sərgi də nümayiş olundu.

Milli birliyimizə, dövlətçiliyimizə xidmət edən, tolerantlığın real nümunəsi olan belə tədbirlərin keçirilməsində, təşkilində Balakən Mədəniyyət Mərkəzi Respublika Mədəniyyət müəssisələrinin içində öncüdür, birincidir, öz dəsti xətti ilə seçilir.

**Ramazan ABAL**



# Balakən rayonunda "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar tədbir keçirildi



Mədəniyyət Mərkəzi və Gənclər evinin birgə təşkilatçılığı ilə "Gəlin təbiəti birlikdə düşünək" adlı gənclərlə maarifləndirici görüş keçirildi.

Tədbirdə mədəniyyət işçiləri, Gənclər evinin əməkdaşları, Uşaq Səfirlər Məclisinin region nümayəndələri, könüllü gənclər iştirak etdi.

Tədbiri ilk öncə Mədəniyyət Mərkəzinin direktoru A.Ocaxverdiyev açaraq rayonumuzda "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar müxtəlif səpkili tədbirlərin həyata keçirildiyini vurğuladı. Təbiəti, ətraf mühiti birlikdə qorumağa səslədi.

Daha sonra mövzü ətrafında Mədəniyyət Mərkəzinin bədii rəhbəri Z.Bakeyeva, Gənclər evinin metodisti F.Mikaylov, region üzrə Gənc Səfirlər X.Əhmədiyeva, S.Ceerçiyeva çıxış edərək bildirdilər ki, hər birimiz ətraf mühiti qoruyub saxlamalıyıq. Daha da həssas yanaşmalı, təbii sərvətlərə və mədəni dəyərlərə hörmətlə yanaşmalı olduğumuzu vurğuladılar. Onlar biz "mən varam dünya var, mən yoxam dünya yoxdur" prinsipi ilə yaşamamalı, dünyamızı gələcək nəsillərə tarazlı, təmiz, səliqə-sahmanlı ötürməli olduğumuzu qeyd etdilər. Çıxışlardan sonra tədbir iştirakçıları mövzü ətrafında hazırlamış filmi izlədilər.

Sonda tədbir iştirakçıları "Gəlin təbiəti birlikdə düşünək" adlı rəsm və əl işlərindən ibarət sərgi ilə tanış oldular.

**"YENİ BALAKƏN"**

# Yevlax-Zaqatala-Gürcüstan yolunun 70 kilometri

Yevlax-Zaqatala-Gürcüstan yolunun, Zaqataladan (Şimşək adlanan, Muxax döngəsindən) Şəki qoşa qala qapısı girişinədək olan 70 km məsafədəki yol əgər deyimi uyğunsa it günündədir.Bu yola alternativ yol var-Qax və Şəkinin içərisindən, dağlara yaxın keçən. Və alternativ bu yol keyfiyyətlidir amma təhlükəlidir. Çünki digər əsas yol bərbad,biabır xarab olduğundan bütün yük alternativə düşür. Yeni yol çox döngəli, əyri-üyrü olduğundan, maşınların əsasəndə "Vitaların" çox sürətli sürdüyündən, "Tırların' hamısı ordan keçdiyidən, yaşayış məntə- qələri yola çox yaxın olduğundan orda həyati təhlükə an məsələsidir. O yol magistral deyil amma magistralın yüküylə yüklüdür,bu da özlüyündə anormal vəziyyətdir.Əgər əsas yolun o 70-cə km-i əsaslı təmir olunsa, ölkənin hər nöqtəsini Şimali Qərb hüduduyla birləşdirdirən yol tamamlanmış, magistral beynəlxalq səviyyəyə yüksəlmiş olacaq..

Balakən-Bakı qatarı tezliklə işə düşsə, quru yolunda sərnişin daşıma yönündə xeyli yüngüllük yaranar.

Hələ Zaqatala aeroportu işləsə, ümumiyyətlə qara yolları rahat nəfəs alar, vətəndaşlar çeşitli nəqliyyat xidmətlərindən səmərəli, keyfiyyətli, təhlükəsiz, rahat faydalana bilərlər. Yanacağın qiymətindəki artımla əlaqədar yüksələn nəqliyyat qiymətləri, bu məsələni bir daha masaya yatırmağı,vətəndaşın rifahına, xeyrinə həll edilməsinə zərurət yaradır.

**"YENİ BALAKƏN"**

## ALLAH RƏHMƏT ELƏSİN

Balakən Təhsil İdarəsinin sabiq kollektivi, Kərimov Seyfullah Ramazan oğluna atası

**KƏRİMOV RAMAZANIN**

vəfatından kədərləndiyini bildirir,dərin hüznlə baş sağlığı verir.

---

"Yeni Balakən" qəzetinin kollektivi Ziyəddin Abbasova atası

**FƏRHAD ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir,dərin hüznlə baş sağlığı verir.

**MƏSUL REDAKTOR:**
**Ramazan ABALOV**

Ünvanımız: Balakən şəhər.
Nəsimi küçəsi 31b

ramazanabal@gmail.com

Mob: 050 518 17 60

**HESAB NÖMRƏMİZ:**
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO13501000000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153

Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.

Tiraj 100